CENTER OF ANALYSIS OF INTERNATIONAL RELATIONS

TƏHLİL

# Cənubi Koreyanın enerji təhlükəsizliyində Xəzər hövzəsinin artan rolu


Vüsal Quliyev

Fikrət Mahmudov

Mirzə İbrahimov 8, Bakı, AZ1005, Azərbaycan

(+994 12) 596-82-39, (+994 12) 596-82-41

E-mail: www.aircenter.az, info@aircenter.az


İYUN 2026

## Cənubi Koreyanın enerji təhlükəsizliyində Xəzər hövzəsinin artan rolu

Müasir dünyada enerji təhlükəsizliyi dövlətlərin xarici siyasəti, iqtisadi planlaması və strateji müdafiəsinin ayrılmaz bir komponenti kimi qəbul edilir. Xüsusilə resurs baxımından məhdud, lakin yüksək sənayeleşmiş iqtisadiyyatlara malik olan dövlətlər üçün enerjiyə fasiləsiz çıxışın təmin edilməsi milli təhlükəsizlik məsələsinə çevrilmişdir. Bu baxımdan Cənubi Koreya, xam neftə olan yüksək tələbatı və coğrafi strukturu ilə qlobal enerji axınlarındakı hər hansı bir kəsilməyə son dərəcə həssas olan ölkələr sırasında yer alır.

Tarixən Körfəz regionundan, xüsusilə də Hörmüz boğazından keçən dəniz yollarından böyük ölçüdə asılı olan Seulun enerji idxal modeli, bu boğazdakı geosiyasi risklər nəticəsində ciddi struktur zəiflikləri ortaya qoyur. Son aylarda bölgədə baş verən gərginliklər bir çox ölkədə həm iqtisadi, həm də siyasi böhrana yol açacağını aydın şəkildə nümayiş etdirdi. Bu şəraitdə Cənubi Koreya, enerji strategiyasını yenidən nəzərdən keçirərək alternativ enerji mənbələri və marşrutların axtarışına yönəldi.

Bu konteksdə Xəzər hövzəsi və Mərkəzi Asiya regionu getdikcə daha mühüm yer tutmağa başlamışdır. Azərbaycan, Qazaxıstan və Türkmənistanın zəngin karbohidrogen ehtiyatları, eləcə də quru tranzit və çoxtəyinatlı logistika infrastrukturasına əsaslanan irimiqyaslı ixrac potensialları bu ölkələri Hörmüz boğazı ilə müqayisədə daha təhlükəsiz və etibarlı tərəfdaş kimi ön plana çıxarır. Sadalanan faktorlardan dolayı, Cənubi Koreyanın 1990-cı illərin əvvəllərindən başlayaraq bu regionda apardığı enerji diplomatiyası, investisiya fəaliyyəti və birgə layihələr hazırda daha intensiv hal alıb.

Cari dövrdə Hörmüz boğazında yaranan geosiyasi gərginlik Şərqi Asiya ölkələrinin enerji təhlükəsizliyi modelindəki fərqləri və həssaslıqları yenidən gündəmə gətirib. Mövcud statistikaya əsasən, Cənubi Koreyanın xam neft idxalının təxminən 70%-80%-i bu riskli tranzit keçiddən asılı vəziyyətdədir. Bu yüksək asılılıq, boğazın blokada riski qarşısında Şərqi Asiyada ən böyük zərbəni Cənubi Koreya iqtisadiyyatının almasına səbəb olur. Nəqliyyat marşrutlarındakı bu struktur zəifliyi Cənubi Koreya prezidenti Li Cae Myunqu ölkənin enerji təhlükəsizliyini yenidən nəzərdən keçirməyə və adıçəkilən boğazdakı Koreya gəmilərinin təhlükəsiz şəkildə geri qayıtmasını təmin etmək üçün tədbirlər görməyə məcbur edib. Seulun enerji çatışmazlığından sığortalanmaq üçün yönəldiyi əsas alternativ enerji mənbələri geosiyasi risklərdən uzaq və quru kəmərlərinə əsaslanan enerji daşıyıcılarına malik Xəzər hövzəsi ətrafıdır.

Xəzər hövzəsi dünyanın ən mühüm enerji mərkəzlərindən biri hesab olunur. Azərbaycan, Qazaxıstan və Türkmənistan kimi ölkələrin zəngin neft və qaz ehtiyatları bu regionu beynəlxalq enerji xəritəsində strateji əhəmiyyətə malik məkana çevirib. Enerji resurslarından yüksək dərəcədə asılı olan Cənubi Koreyanın Xəzər hövzəsi və Mərkəzi Asiya regionundakı enerji maraqları postsovet dövrünün ilk illərindən formalaşmağa başlamışdır. Sovet İttifaqının dağılması nəticəsində yaranan geosiyasi boşluq şəraitində Seul regionun yeni müstəqil dövlətləri ilə diplomatik münasibətlər quraraq aktiv enerji diplomatiyasının əsasını qoymuşdur. 2000-ci illərin əvvəllərindən etibarən Koreya hökuməti strategiyasını dəyişərək regionda aktiv enerji yataqlarının birbaşa işlənilməsində pay sahibi olmaq modelinə keçmişdir.

2007-ci ilin aprel ayında SOCAR və Koreya Milli Neft Korporasiyası (KNOC) arasında imzalanmış memoranduma əsasən Azərbaycanın enerji sektorunda Cənubi Koreya ilə strateji enerji əməkdaşlığını genişləndirmək və gələcəkdə neft-qaz layihələrində birgə fəaliyyət imkanlarını araşdırmaq barədə razılıq əldə olunub. Bu saziş iki ölkə arasında gələcək əməkdaşlıq niyyətini və çərçivəsini müəyyən edən əsas hüquqi sənəd rolunu oynayır.

2007-ci ilin oktyabr ayında KNOC Xəzərin Azərbaycan sektorunda "İnam" perspektiv strukturunun işlənilməsi və kəşfiyyatı layihəsində Britaniya-Hollad Şirkətində Shell şirkətinin 25%-lik ümumi payından 20%-nin alınması barədə saziş imzalayıb. Buna qədər, KNOC "İnam" layihəsində 50%-lik iştirak payına sahib olan SOCAR-dan 20% iştirak payını almaq istəyini bildirmişdi. Həmin dövrdə SOCAR və BP ilə əməkdaşlıq perspektivləri də müzakirə olunmuşdur. Koreya rəsmiləri Azərbaycanın enerji resurslarının Koreya üçün mühüm əhəmiyyət kəsb etdiyini bildirmişdir.

Bundan savayı, 2011-ci ilin avqust ayında SOCAR Trading ilə KNOC arasında Koreya terminallarında neftin saxlanılmasına dair saziş imzalanmışdır. Əldə edilən razılaşmaya əsasən, SOCAR Trading iki il müddətində Koreyadakı terminallarda 5,3 milyon barel neftin saxlanılması hüququnu əldə etmişdir. Müqavilədə bu müddətin daha bir il uzadılması da nəzərdə tutulmuşdu.

Eyni zamanda, 2026-cı ilin fevral ayında enerji sahəsində SOCAR və Samsung E&A şirkəti arasında imzalanmış anlaşma memorandumu da Cənubi Koreyanın Azərbaycan və Xəzər regionu ilə enerji əlaqələrini gücləndirməsi, onun Avrasiya enerji bazarlarında daha aktiv rol alma cəhdləri kimi qiymətləndirilir. Müqavilənin əsas məqsədi enerji infrastrukturunun səmərəliliyinin artırılması, texnoloji əməkdaşlıq,

istehsalın lokallaşdırılması, insan kapitalının inkişafı və dekarbonizasiya istiqamətində birgə fəaliyyətin genişləndirilməsidir.

Bundan əlavə, Koreya konsorsiumları Qazaxıstanın Xəzər sektorunda yerləşən "Jambıl" blokunun da işlənilməsində iştirak etmişdir. Bu layihələrdə Samsung, SK Group və digər transmilli Koreya şirkətləri KNOC ilə birlikdə fəaliyyət göstərmişdir. Bu əməkdaşlıq Koreyanın yalnız enerji idxalçısı deyil, həm də beynəlxalq enerji investoru kimi mövqeyini gücləndirmişdir. Həmçinin Cənubi Koreya Qazaxıstandakı "Arystan" və "Kulzan" yataqlarını idarə edən Qazaxıstanın Sumbe enerji şirkətini ilk olaraq 2009-cu ildə 85% payla satın almış daha sonra isə yataqların tam mülkiyyətini və operatorluğunu təmin edərək payını 100%-ə çatdırmışdır.

Hörmüz boğazında yaranmış geosiyasi böhran fonunda Cənubi Koreya hökuməti artıq yüz milyonlarla barel nefti Hörmüzdən kənar alternativ marşrutlar vasitəsilə idxal etməyə başlamışdır. Bu proses Cənubi Koreyanın enerji təchizatında marşrut və mənbə diversifikasiyasını sürətləndirmişdir. Mövcud vəziyyət həmçinin Seulun Xəzər hövzəsinə yönəlik enerji siyasətinə yeni dinamika qazandırmışdır. Xüsusilə Qazaxıstan Cənubi Koreya üçün əsas alternativ neft təchizatçılarından birinə çevrilmişdir. Belə ki, 2026-ci ilin aprel ayında əldə olunmuş dövlətlərarası razılığa əsasən, Cənubi Koreya Qazaxıstandan 18 milyon barel neft idxal edəcək.

Hörmüz böhranı bir daha göstərdi ki, Cənubi Koreyanın Körfəz regionundan yüksək enerji asılılığı ölkənin milli iqtisadi təhlükəsizliyi üçün ciddi strateji risk yaradır. Bu səbəbdən Seul alternativ enerji mənbələrinə, xüsusilə Xəzər hövzəsinə yönəlmiş çoxşaxəli enerji siyasətini gücləndirməkdədir. Qazaxıstanla enerji əməkdaşlığının genişlənməsi, eləcə də Azərbaycanın enerji və tranzit körpü kimi rolunun artması Koreyanın enerji təhlükəsizliyi arxitekturasında yeni geosiyasi xətt formalaşdırır. Bütün bunlarla yanaşı, sözügedən Xəzər hövzəsi ölkələrinin Orta Dəhliz kimi qitələrarası tranzit layihələr, C6 formatı və Türk Dövlətləri Təşkilatı kimi inteqrasiya platformaları vasitəsilə koordinasiyalı fəaliyyəti Cənubi Koreyanın bu ölkələrlə kollektiv əməkdaşlığı üçün əlverişli şərait yaradır.

Xülasə, Cənubi Koreyanın enerji siyasəti tək mənbəyə əsaslanan modeldən uzaqlaşaraq çoxqütblü və risk-diversifikasiyalı strategiyaya keçid etməkdədir. Mövcud tendensiyalar göstərir ki, yaxın illərdə Xəzər hövzəsinin Cənubi Koreyanın enerji təhlükəsizliyi siyasətində rolu daha da artacaq və region Seulun Avrasiya siyasətində əsas strateji dayaqlardan birinə çevriləcəkdir.

**Müəlliflər:**

**Vüsal Quliyev, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin aparıcı məsləhətçisi**

**Fikrət Mahmudov, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzində təcrübəçi**